*Anadan olmasının 420 illiyi münasibətilə*

# Saib Təbrizinin lirikasında bəşəri duyğular



Mürsəl İrəvanlı,

Yazıçı-publisist,
M. Qorki adına
Beynəlxalq
mükafat laureatı
Gəncə şəhəri

## II yazı

...Məhəbbət qəhrəmanı xırda, ötəri hisslərdən qoruyur, onda sədaqət, doğruluq, fədakarlıq kimi nəcib xasiyyətlərin inkişaf etməsinə, lirik qəhrəmanın daxilən təmizlənib, mənəviyyatca paklaşıb ülviləşməsinə səbəb olur. Məhəbbət yolunda əzablar çəkib, həyatın – ömrün qəmini, kədərini yaşayan lirik qəhrəman hicranla küşk. O, vüsal haqqında ürək yanğısı ilə danışsa da, vəslə yetməkdən qorxur, qaçır. Çünki vüsal lirik qəhrəmanın hicranla əbədiləşmiş ömrünü yarıda qırıb həmişəlik məhv edə bilər.

Saibin yaratdığı lirik qəhrəmanlar hicranın əzablı, çətin yolları ilə fədakarlıqla irəliləyirlər. Onlar da vüsala can atırlar. Vəslin üfüqlərində parlayan qığılcım onları ahənrüba kimi özünə çəkir. Onun yeganə istəyi eşq atəşini alovlandırıb pərvanə kimi odun dövrəsinə dolanmaqdan ibarətdir:

**İstəməli mülki – Süleymanı, nə də təxti-cəmi,**
**İki dünyaya dəyər aşiq üçün eşqin qəmi.**

Saibə görə eşq olan yerdə cəfa ilə vəfa eynidir. Aşiq nə qədər ki, hicran çəkir ruhən vəslidə yaşayır:

**Arif insanlar vüsalı ayrı salmaz hicridən,**
**Çox quşa gül şaxəsi vəslət deyil, zindan olur,**
**De, necə Saib, gözün yarın gözündən qorxmasın,**
**Ol səmavi gözlərin hökmilə min tufan olur.**

Burada şair vüsala yetməyin necə ağır və dözülməz olduğuna işarə edir, öz lirik qəhrəmanını bir tərəfdən hicranın sınaqlarından keçirib vəslə doğru aparır, o biri tərəfdən onu vüsaldan çəkindirir.

Saibə görə eşq insanın həyatıdır. Vüsala çatanda eşqin ömrü sona yetişir. Aşiqə yeni bir həyat təsiri bağışlayan vüsal həyat – dirilik suyuna bənzəyir. Ancaq unutmaq olmaz ki, bu su da eşqin atəşini söndürür. Əgər eşqin ömrünü uzatmaq istəyirsənsə vüsaldan qaçmalısan.

**Aqilə nadan əgər rəhbər ola, yoldan azar,**
**Elə bil kim kor adam yoldan keçir bir kor ilə.**
**Eşqə qayilsən əgər vəslə həvəs göstərmə çox,**
**Söndürər atəşi su, abi-həyat olsa belə.**

Fəqət vüsalın əksinə olaraq eşq insan varlığının mənası, onun daim fəal bir qüvvə kimi yaşamasını nişan verməkdədir. Hətta eşqin odu dünyanın mərkəzinə nüfuz etdiyindən dünya eşq peymanəsi kimi daima hərəkətdədir, dolaşmaqdadır.

Məhəbbət dastanlarında olduğu kimi lirik əsərlərdə də qəhrəman əksər hallarda vüsala yetişmədən ölür. Bu bir tərəfdən yuxarıda qeyd etdiyimiz kimi hicrana dözüb vüsaldan qaçmaq ideyası ilə bağlıdırsa, digər tərəfdən aşiqin öz məşuqəsi yolunda fədakarlığının ən yüksək zirvə-nöqtəsidir. Eyni zamanda bu canından keçmək əsla aşiqi məhv etmir, bəlkə də ona əbədi həyat verir, həmişəlik yaşadır.

**Sanmayın eşqi həvəsdir, bizi tərk eləyəcək,**
**Aşiqin qəbri də, torpağı da, ünvanı da eşq.**

Saib məhəbbətin əbədiliyindən yazarkən eşq aləmində öz ölməz məhəbbətləri ilə daimi həyat qazanmış Leyli, Məcnun, Şirin, Fərhad və s. qəhrəmanların həyatını misal gətirir. Şair yazır ki, onlardan hər birini məhəbbət dünyasında özünəməxsus göstərdiyi fədakarlıq yaşatmışdır. Çünki Fərhadın qoluna qüvvət, külüngünə kəsər verən Şirinə qarşı odlu məhəbbətidir. Bu məhəbbətin səsi Bisütun dağının parça-parça qopmuş sinəsində hələ də ucalmaqdadır:

**Dəysə də başı göyə tanrı bilir axırda,**
**Gəc olar, gər o evin gəc qayalar bünyadın.**
**Parçalanmış sinəsindən hələ də Bisütunun,**
**Saib, əks etməkdədir zərbələri Fərhadın.**

Saib bəzən bədii surətlər vasitəsilə də eşqin əbədiliyini təsvir etmişdir. Pərvanə - aşiq canını öz məşuqəsi şama qurban verir. Aşiq vüsala çatmadan yanır, məhv olur. Şairin dili ilə desək eşqin əbədi həyatında yaşayır:

**Kimi torpağa yıxarsan səni torpağa çəkər,**
**Şam sönəndə qarışan külünə pərvanələrin.**

XV əsrdən başlayaraq Azərbaycan ədəbiyyatında fəlsəfi fikirlərin geniş təbliğ olunması ilə bağlı olaraq şairin həyat hadisələrinə, ictimai varlığa daha yaxından qarışmaq meyli, bir tərəfdən də ana dilli ədəbiyyata xalq şeirinin və aşıq-ozan poeziyasının güclü təsiri bu şeirləri həyat hadisələrinə və real lövhələr təsvirinə daha da yaxınlaşdırırdı. Buradan da məhəbbət poeziyasının qarşısında bir yandan həyati cizgiləri ilə hətta romantik lirik qəhrəmanlardan daha gözəl görünən, sevib-sevilməyə layiq insanın məhəbbəti, o biri tərəfdən insana məhəbbətin tərənnümü məsələsi dayanmışdı.

İnsana məhəbbət kimi qabaqcıl ideyanın poeziyada tərənnümünün tarixi Azərbaycan ədəbiyyatında qədimdir. Bu ideya dahi Nizami Gəncəvinin humanist poeziyasından qidalanaraq inkişaf etməkdə idi. Dünyəvi meyllərin məhəbbət poeziyasında güclənməsində ədəbi mühitin təsiri ilə yanaşı ictimai həyatın qarşısıalınmaz tələbləri də böyük rol oynamışdır.

Saib Təbrizi sələfləri kimi, özünün ictimai ideyalarını, siyasi və humanist görüşlərini də məhəbbət qəzəllərində vermişdir. Bu qəzəllər ilk baxışda adi məhəbbətlə bağlı müxtəlif lirik hissləri tərənnüm edən əsərlər kimi görünsə də, bir qədər diqqət etdikdə həmin şeirlərdə vəsf olunan eşq, ictimai fikirlər, bəşəri ideyalar və insanların həyatının müxtəlif cəhətləri ilə nə qədər bağlı olduğunu görürük.

Saib özü yazır ki: "Şairin vəsf etdiyi gözəlliyin və ya təbliğ etdiyi fikirlərin mayası həyatdır. Lakin şair real aləmdən aldıqlarına poetik vüsət verir, mübaliğə, təşbeh və başqa təsir vasitələri ilə zinətləndirir..."

Saibin dünyəvi məhəbbəti tərənnüm edən şeirlərində aşiq də, məşuq də daxili aləmləri ilə həyata, real varlığa və onun hadisələrinə nə qədər bağlıdırlarsa, onların zahiri görünüşləri də həyati predmetlərlə qiyasda verilir. Bu şeirlərdə yer cisimləri və təbiətin torpaqdan baş qaldıran gözəllikləri şairin ən çox istifadə etdiyi təşbehlər və müqayisələrdir:

**Qəddin kimi sərv yox cahanda,**
**Hüsnün təki gül yox heç məkanda.**

Şairə görə həyat gözəlinin tayı-bərabəri yoxdur. Əgər belə olmasaydı o zaman ədib öz gözəlinə boyun "sərv kimidir" və ya "sən cənnət gülşənində bitən nihala bənzəyirsən" deyərdi. Onda məşuqənin gözəlliyi kölgədə qalardı. Çünki onun qaməti sərvə oxşadığı üçün gözəl olacaqdı:

**İki gündən çox olmur güllərin təravəti,**
**Gül üzlü nigarlara gözəllik bir nişandır.**
**İki həftə qonaqsan bu çəməndə ey gülüm,**
**Dodağını açma ki, gül dərilən zamandır.**

Saibin bu beyti dahi şair Sədi Şirazinin məşhur:

**Nə edirsən o gül dolu təbəqi,**
**Bu Gülüstandan al bu bir vərəqi.**
**O gülün beş, ya altı günlündür,**
**Bu Gülüstan fəqət ömürlükdür.**

şeirini xatırlatsa da, Sədidə sənətin ölməzliyi, Saibdə insan və onun gözəlliyinin əbədiliyi tərənnüm olunmuşdur. Saibin torpaq üstündə böyüyüb başa çatmış, öz hüsnü ilə insanları heyran edən, bağların, çəmənlərin çiçəklərindən təravətli, çayların, bulaqların suyundan şəffaf, sözündə, sevgisində sədaqətli, məhəbbətdə dönməz olan gözəlinə hətta günəş də bərabər ola bilməz:

**Günəş əgər enərsə göydən torpaq üstünə,**
**Sənə tay ola bilməz gözəllikdə o yenə.**

Şairə görə "yer üzünün şadlığı sonsuzdur". Bu şadlığı duymaq və onu qiymətləndirmək vacib şərtdir:

**Dünyanın işrətinə bağlıdı divanə könül.**
**Kədərə, aha olubdur yenə də xanə könül.**
**Bu şikayətli ürək məhşərə bağlanmalı heç,**
**Zülfünün zülmətinə söylədi əfsanə könül.**
**Sən, yanan qəlbimizə etmə hərarətlə nəzər.**
**Torpağın eşqi ilə yandı bu pərvanə könül.**

Yuxarıdakı beytlərdən aydın olur ki, şair məhəbbətdən "divanə" olmuş qəlb üçün həqiqəti də, əfsanələr aləmini də yer üzündə tapır. Onun lirik qəhrəmanının məhəbbət odunda yanmış könlünə həqarətlə baxmaq olmaz. Çünki bu qəlbdə torpağın sevgisi yurd salmışdır. Saib Təbrizinin poeziyası humanist poeziyadır. Onun şeirlərinin ruhu və təbliğ etdiyi ideya yüksək insanpərvərliklə doludur. Bu, insana məhəbbətin mayası sədaqət, fədakarlıq, başucalıq, paklıq, inam, vəfa, minnət çəkmədən yaşamaq kimi yüksək keyfiyyətlərdir. Bütün bunları öz şeirlərində təkrar-təkrar tərənnüm edən şair lirik qəhrəmanın dili ilə sanki özünün bütün həyatının mənasını ümumiləşdirərək aşağıdakı beytdə yazır:

**Oda, suya vururam özümü səhər, axşam,**
**İnsanların yolunda bəlkə şamtək alışam.**

İnsanların yolunda özünü oda, suya vurmaq, bir şam kimi yana-yana ömrünü nura çevirib öz həmcinsinə xidmət etmək ideyası Saib poeziyasının əsas qayəsini təşkil edir. Saib Təbrizinin dünyəvi məhəbbəti tərənnüm edən lirikasının əhatə dairəsi çox genişdir. Məlum olduğu kimi burada məhəbbət sadəcə olaraq sevib-sevilmək, gözəllik poetik tərənnüm çərçivəsindən tamamilə çıxmışdır. İnsanı yüksəldən, onun mənliyini, qürurunu tərbiyə edən, əxlaqi paklıq və ünsiyyət, dostluq kimi bəşəri xasiyyətlər bu şeirlərdə daha artıq diqqəti cəlb edir.

**Tutma ol gül damənin məhşər günündə can üçün,**
**Qılma yüzsüzlük nigar ilən bir Ovuc qan üçün.**

Böyük Azərbaycan şairi Füzulinin məşhur qəzəlindəki

**Canı canan diləmiş, verməmək olmaz, ey dil!**
**Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim.**

beytilə səsləşən Saibin yuxarıdakı azərbaycanca qəzəlində qoyulan fikir daha əhatəlidir. Füzuli kimi Saibin də lirik qəhrəmanı sevgilisi yolunda canından keçməyə hazırdır. Lakin Saibin qəzəlində fədakarlıqla bahəm lirik qəhrəmanın daxili aləminin qüruru da sənətkarcasına verilmişdir. Şəxsiyyət azadlığı, onun başı uca, minnətsiz yaşaması ideyası Saibin bu qəzəlində beyt-beyt, misra-misra ictimai həyat hadisələri ilə müqayisədə verilmişdir:

**Açma gül ağzın görəndə xalimişkin dənəsin,**
**Əkmə baş pərgartək hər nöqtəyə dövran üçün.**
**Yengi ay başın əgər xurşidə ta olsun tamam,**
**Sadə dil bilməz ki, bəsdir özünü nöqsan üçün.**

Saib dudaktik şeirlərində də həyat və insan haqqında yüksək bəşəri fikirləri ilə çıxış edir. Məhəbbət lirikası həyat fəlsəfəsindən qidalanır, oxucuda həm dərindən düşünmək, həm də mənaların daxilinə nüfuz etmək qabiliyyəti tərbiyə edir. Çətin gündə zəifləməyən, sınaqlardan çıxmış bir dostluğa səsləyir:

**Yoldaş odur kim, qara günlərdə yoldan çıxmasın,**
**Keçmə yoldaşdan xızırtək çeşmeyi-heyvan üçün.**

Saibə görə insanın həyatda yarıtmaz və dargörüşlü olmasına başlıca səbəb onun cahilliyidir. Cəhalətin qaranlığında qalmış adamın ixtiyarı öz əlində olmur, onlar əqlidən çox həvəsə tabe olurlar. Bu da həyatın qanunudur:

**Çün könül binur olub mütləq ənan alır həvəs,**
**Qaş qaralanda çıxarlar yuvadan xəffaşilər.**

Saib Təbrizi XVII əsrdə nəinki təkcə Azərbaycanın, ümumilikdə Şərq ədəbiyyatının da görkəmli nümayəndəsi idi. Onun şeirlərində dövrünün ictimai-fəlsəfi və əxlaqi görüşləri öz əksini tapmışdı. Biz Saib yaradıcılığında feodal cəmiyyətin ziddiyyətlərini, haqsızlıq və zülmün müxtəlif şəkildə təzahürlərini görür və bunlara qarşı şairin həssaslığının şahidi oluruq.

Mütəfəkkir şair həyat həqiqətlərinin daxili mənasını dərk etdiyindən narahat həyat sürür. Çünki hər şeyi görüb başa düşmək, onun mənasını açmaq Saib dövrünün hakim təbəqəsini narahat etdiyindən bir qəbahət və günah sayılırdı.

Şair özü demişkən: "Bixəbərlik aləmi behişt imiş, yüz dəfə heyf olsun ki, biz gec xəbərdar olmuşuq..." Şairin bu fikrində çox nazik, ancaq olduqca kəsərli bir istehza var. Çünki bixəbər ol, həyat sənin üçün behişdir, istəsən yüz il yaşa... Elə ki, duydun, düşündün ömür zindandır, yaşamaqdan cana gələcəksən:

**Səadətmiş nadanlıq biz niyə hüşyar olduq?**
**Xeyir qəflətdə imiş əfsus, gec xəbərdar olduq.**

Adamların hüşyar olmaları, hər şeyi dərk etməmələri, xalqın qəflət yuxusunda qalmaları isə bütün zəmanələrdə yuxarı təbəqənin xeyrinədir. Saib deyir: "Yetim uşaq kimi nənnimiz göz yaşında yırğalanıb, dayəmiz də qanımızı içərək bizi xamuş etmişdir". Fəqət mehribanlıq əvəzinə "dayə"sindən, yəni dövrün hakim təbəqəsindən zülm görən nənni yerinə göz yaşı içərisində böyüyənlərin dərdinə yanan şair, heç zaman susmamışdır...

**İyun 2019-cu il**

